# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın "Od içindən keçən yol" poemasının ikinci hissəsi üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli qəzetimizin 29-cu sayında)*

Mən Rafiq Musanın "Od içindən keçən yol" poemasının geniş və əhatəli təhlilinə ona görə yer verirəm ki, bu əsər Qarabağı görmək istəyənlər üçün çox dəyərli bir bələdçidir. Sanki əsərin lirik qəhrəmanı oxucunun əlindən tutub Qarabağı birər-birər gəzdirir, Araz boyu ilə Azərbaycanı ayıran sərhədlərə yanğı ilə baxaraq tarixi yaddaşın ağrılarını canında hiss edir. Ümumiyyətlə, xalqın faciəsini, mən deyərdim ki, tarix kitablarından daha çox bədii əsərlər göstərə bilir. Çünki bədii əsər əgər kamil sənətkar əlindən çıxıbsa, onda oxucu müəllifin təsvir elədiyi mənzərələri bütün rəngləri ilə görə bilir. Elə bu səbəbdən də mənzərələr oxucu yaddaşına əbədi həkk olur. Və beləliklə, hər kəs tarixi doğru, dürüst mənimsəyir və yaddaşında saxlayır.

Bir az əvvəldə müəllifin yada saldığımız bədii lövhəsində xalqımızın öz tarixini daşlara yazdığını qeyd etdim. Doğru deyir, qədim türk tarixinin ən maraqlı səhifələri daş üzərindəki yazılardır. Qarabağda baş verən olaylar da əslində elə daş üzərindəki yazılardır. Xarabalıqlar, viranə qoyulmuş kəndlər, şəhərlər - bütün bunların hamısı yağı əli ilə yazılmış faciəvi-dramatik bir əsər mahiyyəti daşıyır.

Rafiq Musa da dostunun sorağı ilə Qarabağın dağlarına doğru yol gedir və yol boyu gördüklərini qələmə alır, yazıya köçürür. Belədir, hər kəs mövcud olanı öz düşüncəsi ilə görür, məhz bu düşüncə ilə baş verən olaylara qiymət verməyə çalışır. Onun ədəbi qəhrəmanı şairdir, yazıçıdır, publisistdir. Qarabağ ağrılarını illər boyu öz varlığında yaşatmış, bu dərdi, kədəri öz qəlbində çəkmiş, haqqın, ədalətin bərpa olunması naminə qələmi ilə mübarizə aparmışdır. Kitablar yazıb, qəzet nəşr edib, televiziya, radio çıxışları ilə həqiqəti dünyanın hər yerinə çatdırmağa çalışıb. Nə etmək olar, bizim istəyimizdən asılı olmayaraq tarixin gedişatı bəzən ləng, bəzən də sürətli olur. Təsadüfi deyil ki, bir qərinə xalqımız dözüm göstərdi, hadisələrin çözümü üçün proseslərə səbirli yanaşdı. Ancaq nəticədə məlum oldu ki, həqiqətləri hərə öz baxış bucağından görür. Yəni məsələyə obyektiv, real, ədalətli yanaşma yoxdur. Ona görə də Azərbaycan xalqının birliyini, haqq işi uğrunda bu birliyin gücə çevrilməsini təmin edən Ali Baş Komandan ədaləti bərpa etmək əmrini verdi. Azərbaycan ordusu tarixi gerçəkliyi ədalət donunda dünyaya göstərmək gücündə idi. Əslində, R.Musa "Od içindən keçən yol" poemasında bu tarixi həqiqəti dilə gətirməyə çalışıb. İstəyib ki, gələcək nəsillər onun bir səfərlə yazıya gətirdiyi təəssüratların tarixi mahiyyətini düzgün anlasınlar. Beləliklə, şairin gəzdiyi, gördüyü yerləri biz də öz gözlərimizlə təzədən görürük. Hətta bu yerlərdə doğulub böyümüş, boya-başa çatmış əsərin qəhrəmanı özü də sanki dəyişmiş bir mənzərə ilə rastlaşır. Yağı düşmən həyat əlamətlərini elə talan edib, elə dağıdıb ki, yaddaşdakı bir tanış mənzərə də öz görkəmini saxlaya bilməyib. Bax elə mən buna görə deyirəm ki, R. Musanın "Od içindən keçən yol" poeması Qarabağdakı mövcud vəziyyəti göstərmək baxımından çox dəyərli bədii sənəddir. Müəllif yazır:

Bu elə-obaya yolu düşənlər
Qürurla baxacaq abidə daşa.
Cəbrayıl sözünü Vətən sözüylə
Oğullar bu daşa yazıblar qoşa.

Güləcək kəndlərin üzü, güləcək,
Alışıb yanacaq evlərdə ocaq!
Bu yerlər yeni bir tarix yazacaq,
Bu kəndlər yenidən abadlaşacaq.

Düşmənin bu yerdə qırıldı beli,
Dözə bilmədilər böyük savaşa.
Haqqı-ədaləti bərpa edənlər
Cəbrayıl sözünü yazdılar daşa.

Dərin dərələrin bağrı yarılıb,
Hələ də uyuyur ağrılarında.
Barıt qoxusu var, qan ləkəsi var,
Dağların yamyaşıl "sarğılarında".

Bir zaman yaşadı xatirələrdə,
Ağrı-acılara dözdü birtəhər.
Köhnə dərdlərini unuda bilmir,
Yeni dünyasını yaşayan şəhər.

Müəllif ağrı-acıları, torpağın yaralarını nə qədər kədərlə təsvir etsə də, yeri gələndə nikbinliyini, mənəvi üstünlüyünü də göstərə bilir. Çünki Qarabağ müharibəsi başlayanda Azərbaycan ordusu Cəbrayıl istiqamətində çox uğurlu hərbi əməliyyatlar apardı. Unutmaq olmaz ki, Cəbrayıl ərazisi nəinki Qarabağı, elə bütöv Azərbaycanın çox həssas bir zonasıdır. Üstəlik məşhur Ohanyan xətti də məhz Cəbrayıl ərazisindən keçirdi. Arazdan başlayaraq üzü şimala doğru uzanıb gedirdi. Düşmən bu xəttə çox güvənirdi. Amma Azərbaycan ordusu çox böyük hərbi güc göstərərək düşməni elə buradaca məğlub etdi. Hələ vaxtilə Lələtəpə 2016-cı ildə Azərbaycan ordusu tərəfindən düşməndən azad edilmişdi. Bu ərazidən başlayan hücumlar çox böyük sürətlə davam elədi.

Müəllif kəndləri keçdikcə gördüyü mənzərələri yazıya gətirir. Mənim üçün maraqlı olan bir məqam da var; müəllif üzü Cəbrayıla - Xələfliyə doğru gedərkən Mehdili kəndinin yaxınlığından keçir. Dağıdılmış Mehdili kəndini müşahidə edir.

Mən Moskvada yaşayan çox istedadlı, tanınmış bir yazıçının maraqlı kitablarının naşiriyəm. Bəli, bu, yazıçı Ulduz Qasımdır. Onun "Maral", "Nöqtələrin dedikləri" kitablarını, Əli Rza Xələflinin Ulduz Qasımın yaradıcılığına həsr olunmuş monoqrafiyalarını nəşr etmişəm. Bu kitablar mənim üçün təkcə U.Qasım deyil, onun doğulub böyüdüyü Mehdili kəndidir. Onun yazılarında rast gəldiyim Cəbrayıldır. Mən poemada Mehdili kəndinin adını görəndə elə bildim ki, doğma bir ərazini xatırladım.

Şair Cəbrayıl ərazilərini sevgi ilə tərənnüm edir, onun gözəlliklərinə valeh olur, gördüyü mənzərələri vurğunluqla yazıya gətirir:

Hər kəsin bu yerdə rahatlığı var,
Burda yaşayanın nə dərdi-səri?!
Hər işin, hər zaman sənətkarı var,
Var olsun el üçün iş görənləri.

Uzaqda görünən dağlara bir bax,
Bizimi gözləyir zirvənin qarı?
Tanrımız heç nəyi əsirgəməyib,
Burda tükənməzdir dünyanın varı.

Günəşin sevgisi dağlardan aşır,
Buludlar zirvədə bölük-bölükdü.
Bu yerin qüruru şeirə sığmır,
Bu sonsuz göylərdən daha böyükdü.

Torpaqa "can" desən çiçək bitirər
Özgəyə qanqal da bitirməyibdi.
Bu torpaq neçə yol yağmalansa da,
Qeyrəti, namusu itirməyibdi.

Bu torpaq düşmənə göz dağı olub,
Hər zaman inanıb öz varlığına.
Taix də bu yurda xor baxanları,
Göndərib tarixin qaranlığına.

Müəllifin maraqlı yanaşmaları var. O, torpağa can deməyin nə ilə nəticələnəcəyini yaxşı görür. Və elə onu da deyim ki, sanki müəllif torpağı canlı kimi görür. Bu canlı varlığın bir qərinəlik əsirlik çağında nələr çəkdiyini təsəvvür etmək heç də çətin deyil.

Nə etmək olar? Ermənilər Azərbaycan torpaqlarında illər boyu əmin-amanlıqla yaşayıblar. Yaxşı güzəranları ilə fərqləniblər. Ancaq nəticədə bu torpağa xəyanət etdilər. Düşmənlərin təhriki ilə Azərbaycana silah qaldırdılar. Bu hadisələrin hamısının mahiyyətində düşmənçilik dayanır. Azərbaycan öz sərvətləri, təbii gözəllikləri ilə göz dağı olub onu istəməyənlərə.

R.Musa ilhamlı şairdir. O, yeri gəldikcə elə maraqlı təşbehlər, bənzətmələr işlədir ki, onun duyğulanmalarına valeh olursan. Çeşmələrin buz yanağından öpməyi, bulaq səsini nəğmə kimi dinləməyi, elə valehedici detallarla təsvir edir ki, adam quş olub həmin yerlərə uçmaq istəyir. Bəli, beləcə, bizi sənət vətən torpağı boyunca öz qanadlarına alıb ən gözəl məkanları seyr etməyə aparır.

Doğru deyir, mənzərələr nə qədər təbiiliyinə görə göz açandırsa, mina təhlükəsi, barıt qoxusunun hələ çəkilmədiyi düşmən izlərinin təhlükə deyə nişanlandığı yerlər bizi ehtiyata səsləyir. Nə etsəkdə, bu vahimədən asanlıqla yaxa qurtara bilmirik. Nəhayət, müəllif Cəbrayıl şəhərinin təsvirini də verir. Buradakı quruculuq işləri onu daha da ilhamlandırır, könlünə xoş duyğular bəxş edir. Onu da deyim ki, R.Musanın təsvir etdiyi Cəbrayıl şəhərinə çoxdandır axın başlayıb. Hamı bu yerlərə can atır, yaşamaq, o yerlərin quruculuğunda iştirak etmək, qəlbi həmin yerlər üçün döyünənlərə könül xoşluğu yaradır:

Öpək çeşmələrin buz yanağından,
Sevgimiz qarışsın bulaq səsinə.
Uzaqdan-uzağa salam göndərək
Sərin bulaqların zümzüməsinə.

Viranə evlərdən, çöldən, çəməndən,
Hələ çəkilməyib barıt qoxusu.
Var olsun bu yurdun mərd oğulları,
Halaldı hər kəsə bu torpaq, bu su.

Qurub-yaradanlar öz həvəsində,
Burda göz oxşayır görülən işlər.
Var olsun şəhərin tikilməyində
Daşı-daş üstünə qoyan kişilər.

Bu şəhər zamanın axarındadı,
Yüksəliş görməyib ömründə belə.
Ucalan binalar göz oxşasa da,
Cəbrayıl özünü tapmayıb hələ.

Atalar-babalar güc göstərdilər,
Hər ağrı-acıya veriblər sinə.
Bu şəhər düşmənə əyilməyibdir,
Oğullar yenidən edirlər binə.

Şair qürurla, fəxrlə xəbər verir ki, Cəbrayılda böyük quruculuq işləri gedir. Əsərin qəhrəmanı, od içindən keçən Əli Rza Xələfli indi Cəbrayılda Dəmir yumruq küçəsində yaşayır. Bu yaxınlarda İctimai Televiziyanın ekranından onun maraqlı çıxışını dinlədim. O, Dəmir yumruq küçəsinin elə maraqlı təsvirini verirdi ki, adam özünü həmin anlarda elə o küçədə hiss edirdi. Ən başlıcası, bu torpaqları işğaldan azad edən dəmir yumruğun nəyə qadir olduğunu təsəvvür edirdi.

Rafiq Musa təbiət etibarilə uzunçuluq, yersiz sözçülüklə oxucunun başını qatan şair deyil. Onun bütün düşüncələrinin məğzində real həyat mənzərələri dayanır. Qəlbi doğma yerlərin həsrəti ilə döyünən insanları öz yurdunda görmək onun varlığında ən xoş duyğular oyadır. Qəlbi, təbiəti nə qədər sözə bağlıdırsa, bir o qədər də yaddaşına bağlıdır.

Mən R.Musanın yaşam yolu qeydlərindən bilirəm ki, o, indiki Ermənistan ərazisində qalmış Güllübulaq kəndindəndir. Mənə elə gəlir ki, bu əsərdəki yanğının bir əsas motivi də elə onun özünün yurd həsrətlisi olmağı ilə bağlıdır.

*(Davamı 11-ci səhifədə)*

*(Əvvəli 10-cu səhifədə)*

Həyat bizə maraqlı sürprizlər bəxş edir. Heç ağlımıza da gəlməzdi ki, Azərbaycan dövlətinin gücü ilə Qarabağ bütövlükdə erməni separatçılarından təmizlənəcək. R.Musa kimi bir şair də Qarabağ dağlarına səfər edəcək, Şərqi Zəngəzura gedəcək. Oradan sərhəd boyu gördüklərini yurd yanğısı ilə qovuşduracaq. Xudafərini, Arazı seyr edəcək. Həyatın ona bəxş edəcəyi bu xoş sürprizləri dəyərli fakta çevirəcək. "Od içindən keçən yol" adlı bir poema da yazacaq. Bu poemada yaxşı tanıdığı bir nəslin keçmişi ilə bu gününü sözün, sənətin gücünə qovuşduracaq, insanlığa inam, gələcəyə nikbin yanaşma hissləri, duyğuları aşılacayaq. Həyatı sevməyin bir yolu da məhz sözdən, sənətdən keçir. Onun hiss olunacaq bir narahatlığı da var. Birdən elə ola bilər ki, xalq yenə sayıqlığını itirər, yaddan çıxarar ki, ermə-

Köhnə peşənizdir gecikməyiniz,
Hər yerdə, hər zaman olduğu kimi!

Şairin ən yaxın dostları idi,
Bugünkü gəliri, qazancı, varı.
Xələfli hər kəsə ərk ilə dedi:
-Küçədə durmayın, qalxın yuxarı.

Ünvana qalxırıq - yeni ünvana,
Əli Rza bu zaman "dilotu yedi".
Əliylə göstərib açıq qapını,
"Buyurun içəri, buyurun", - dedi.

Bir anlıq qayıtdım ötən illərə,
Xəyalım dumana, çənə büründü.
Heyif ki, Zal əmi dəymirdi gözə,
Tovuz bibimizin yeri göründü.

Aradan gör neçə illər ötübdü,
Bu evdə hər kəsə qaynayır qanım.
Əli Rza Xələfli - ağsaqqal baba,
Əlbəttə, nənədir Əntiqə xanım.

Əlbəttə, ailə mühitinin təsviri, Zal dədənin yada salınması, qonaqların qarşılanması məsələsindəki ənənələrin yaşarılığı, bir sözlə istiqanlı

Əntiqə bacımız çox dəyişməyib,
Bir zaman necəydi, elədi indi.
Şairin gözündə... deyə bilmərəm,
Nəvələr yanında nənədi indi.

Hər güldən, çiçəkdən ətir gətirib,
Dolub otaqlara dağın havası.
Ocağı gur yansın, bol olsun nuru,
Var olsun bu evin qonaq-qarası.

Cəbrayıl işğaldan azad olunandan sonra buraya köçürülən ailələrin yaşayış tərzi, adamların uzun müddət ayrıldıqları ərazilərə uyğunlaşması, çoxlu sosial problemlər... Bütün bunların hər biri müəyyən çətinliklər deməkdi. Amma müəllif doğma yerlərin təbiətinin, havasının, suyunun necə cəlbedici olduğunu təsviri göstərir ki, adamlar hər cür çətinliyə dözməyə razıdırlar. Təki doğma yurda qayıtmış olsunlar. Müəllif qeyd edir ki, təbiətin gözəl havası sanki burada adamlara verilmiş mənzillərə də hopub. İnsanlar özlərini çox xoşbəxt hiss edirlər. Yeri gəldikcə yenə yağıların əməlləri yada salınır. Bir cə zahiri görkəmini deyil, həm də mənəvi mühitini müşahidə edə bilirik. O, ruh etibarilə tanınan bir sənət adamıdır. Xalq arasında sözü ilə, əsərləri ilə, kitabları ilə xüsusi nüfuz və hörmət qazanıb. Qəlbən yurduna bağlı sənətkardır. Bir sözlə, Cəbrayıla köçüb məskunlaşanların arasında söz-sənət adamının olması da çox əhəmiyyətli bir hadisə kimi şairin təsvirlərində yer alır. Onun mənəvi mühiti zənginləşdirən insanlara rəğbəti tam təbiidir.

Bir qayda olaraq şair Xələflinin kimliyini onun doğulub-böyüdüyü yerlərdə təsvirlərdə görmək daha maraqlıdır. O, nə üçün yaşının ötməsinə, az qala zamanının keçməsinə baxmayaraq çox nikbindir, yaradıcılığından da qalmır. Elə Cəbrayıl təbiətinin özündə bu təbiətə uyğun maraqlı motivlərlə zəngin olan əsərlər yaratmaqdadır. Bu əsərlərin hər biri Cəbrayılın əbədiləşən yaddaş kodu kimi gələcək nəsillərin varlığı-

# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın "Od içindən keçən yol" poemasının ikinci hissəsi üzərində düşüncələr*

ni xəstəliyi asanlıqla sağalan deyil. Ona görə də yetərincə, yeri gəldikcə xəbərdarlıqlarından da qalmır:

Düşmənə kinimiz yetərincədi,
Nə xoşdur görürük abad şəhəri.
Bu şəhər sevilib, sevənə bağlı,
Var olsun sevəni, sevilənləri.

Küçələr nə geniş, sahmanı gözəl,
Gözəllik içində coşub-daşırıq.
Uzaqdan-uzağa görürük onu,
O duran küçəyə yaxınlaşırıq.

Xələfli bir evin işığı deyil,
Aləmə nur saçır öz ziyasıyla.
Onun hər bir işi göz önündədi,
Cəbrayıl öyünür Əli Rzasıyla.

Xələfli sevgisi tükənən deyil,
Uzaqdan əl edib bizlə bölüşdü.
Bizsiz darıxırmış, sən demə, şair,
Bizim gəlişimiz yerinə düşdü.

Şair gəncliyindən darqursaq idi,
Əvvəl küsülütək görüşdü bizlə.
Sonra yığışdırıb qaş-qabağını,
Süzdü hər bir kəsi o, gülərüzlə.

İnsani hisslər, doğmalıqlar, həmyaşıdların bir-birilə münasibəti, həssaslıqlar şairin təsvirləri üçün əsas verir. O, dostunun təbiətində müşahidə elədiyi kəmhövsələliyi, səbirsizliyi də görür, hətta bunu da ötürmür.

Həmyaşıdların ərkyanalığı da maraqlıdır. Onlar bəzən ən dolaşıq məsələləri də ərklə yanaşmaları ilə həll edirlər. Bu da onu göstərir ki, müəllifin ədəbi qəhrəmanı real həyata çox yaxındır. O, sevgiyə layiq insandır. Elə buna görə də dostları uzaq yol keçir, hətta bəzən təhlükələrlə qarşılaşır, çətinliklərə dözür və gəlib Qarabağın dağlarına çatırlar. Müəllif çox böyük sevgi ilə dostunun yerini, yurdunu dünyanın ən müqəddəs ziyarətgahına bənzədir və bizi inandırır ki, həqiqətən bu yerlər sözün doğru mənasında bir müqəddəslik məkanıdır. Bu yerləri necə sevməmək olar:

İlk öncə qılıqla danladı bizi:
-Bilmirəm, mən indi danlayım kimi?

mühitin inandırıcı təsviri göstərir ki, dostlar ruhlarına doğma olan bir məkana gəliblər. Elə insanların arasına gəliblər ki, buradakı təbiətin özü qədər onlar da doğmadırlar. Nənənin, babanın adları yada salınır, bu ocaqda böyüyən nəvələrin varlığına, təbiətinə ululların xasiyyəti necə hopubsa, eləcə də hissləri, duyğuları həmin əsərdən mənəvi zövq kimi ruhumuza çəkirik.

Şair yeri gəldikcə klassikadan gələn motivlərə də üz tutur. Nizami Gəncəvinin məşhur xoşbəxtlər ölkəsinin təsvirini yada salır. Nizami babamız deyirdi ki, insanlar xoşbəxtlər ölkəsində elə doğmadır, elə inamlıdırlar ki, bağları hasar görmür, qapıları da qıfıl. İndi dirçələn, yenilənən Cəbrayılı müəllif xoşbəxtlər ölkəsi kimi tərənnüm edir. Cəbrayıl cənnətinin gözəlliyini özündə əks etdirən bulaq üstə səfər çox yadda qalan detallarla təsvir olunub. Evdəki hərarətli qarşılanmadan sonra qonaqlar bulaq üstə də getməli olurlar.

Düşünürəm ki, R.Musa bu poemada müasir gənclikdən uzaqlaşmış Qarabağı bir ailənin timsalında yenidən yaddaşa gətirmək missiyasını uğurla yerinə yetirir. Ona görə də biz hər bir parçanı, hətta həyatdan köçmüş olan nənəni, babanı belə yenə yanımızda görürük. Onlardan yadigar qalmış qonaqpərvərliyi, istiqanlığı yeni nəsillərin yaddaşına köçürmək baxımından bu tipli əsərlərin əvəzsiz təsiri var:

Qapımız nə qıfl, nə açar görər,
Nizami babamız belə demişdi.
Dabanı üstündə dayanan qapı,
Bəlkə də, səhərdən örtülməmişdi.

Dünyanın hər işi əvvəldən belə,
Bağlıdır sevincə, bağlıdır dərdə.
Rəhmətlik Zal əmi, Tovuz bibimiz
Yenidən yaşadı xatirələrdə.

Ağlayıb gələnlər ağladıb gedər,
Körpə qucaq açar yeni həyata.
Əli Rza Xələfli müdrikləşibdi,
Oğullar böyüyüb olublar ata.

vaxt bu yerlərdə dövran sürmüş babanın, nənənin həsrətlə dünyadan çökdükləri yaddaşa gətirilir. Bu da əlbəttə, nə qədər kədərli motiv olsa da yenə nikbinlik qalib gəlir. İnsanlar üzü gələcəyə baxırlar, doğmalıqları, istəkli yanaşmaları daha üstün tuturlar.

Mənə elə gəlir ki, R.Musanın "Od içindən keçən yol" poemasında maraqlı məqamlardan biri də dostunun kitabxanası ilə bağlı təsvirləridir. Axı vaxtı ilə bir qərinə əvvəl ermənilər Cəbrayılı işğal edərkən onun çox zəngin kitabxanasını yandırıb məhv etmişdilər. Həyata qayıdış, yeni dövrün başlanğıcı Xələflinin yeni kitabxanasının Cəbrayılda bərqərar olması ilə təsdiqlənir. Bir sözlə, yeni, qaynar həyatın insanı çağıran gözəllikləri ilə üz-üzəyik:

Tanrı töhfəsini əsirgəməyib,
Çayın öz ətri var, suyun öz dadı.
Çiçəklər ətrini ərmağan edib,
Dağların havası otaqlardadı.

"Şkaf"lar düzülüb divar boyunca,
Rəflərdən boylanan onun varıdır.
İlk öncə bu evdə diqqəti çəkən
Şair Xələflinin kitablarıdı.

Kitablar əzizdir burda hər kəsə,
Bu evdə yeri var kitabların da.
Şairin sevinci, qayğıları var
Rəflərə yığılan kitablarında.

Bir vaxt vətənindən düşsə də köçkün,
Şairin gəncliyi qalmışdı burda.
Ağrı-acıları atıb bir yana,
Sevgiylə-sevinclə dönübdür yurda.

Sanki sevincini bizimlə bölür
Xələfli dağından enərək düzə.
Kitablar üstündə şəkillər fərqli,
Xələfli hər yaşda boylanır bizə.

Müəllif xüsusi məmnunluq hissləri ilə Xələfli adının bir sənətkarın ünvanı kimi yaşarılıq almasına qürurlu münasibət göstərir. Hətta onun ayrı-ayrı çağlardakı uşaqlıq fotoşəkillərini müşahidə edir. Dəyişən yaş görüntülərinin fonunda biz onun təkna hopacaq. Daha bir neçə qərinə sonra insanlar işğaldan azad olmuş Cəbrayılın ən gözəl təsvirləri ilə onun maraqlı, doğma insanları ilə bu əsər vasitəsi ilə tanış olacaqlar:

Yeni ev-eşikdə sahmana bir bax,
Yarısı burdadı dünya varının.
Yazdığı əsərlər göz oxşamaqda,
Sayı bilinməyir kitablarının.

Şairin qəlbi var əsərlərində,
Sözləri sözlərə calayıb gedir.
Kitabdan-kitaba səssiz-səmirsiz
Bir ömür karvanı yol alıb gedir.

Hər sözün qiyməti öz dəyərində,
İpək sığalıdı, haray səsidi.
Ürəkdən ürəyə süzülən sözlər
Ağılın, idrakın təntənəsidi.

Ömrün davamıdır yazılan əsər,
Nurunu hər yana salacaq hər gün.
Fikirlər kitabda korşalan deyil,
Boş rəflər kitabla dolacaq hər gün.

Şeirlər alovdan-oddan yoğrulub,
Hər misra tarixin haray səsidi.
Şeirlər şairin könül nəğməsi,
Haqqın-ədalətin təntənəsidi.

Şair nə gözəl deyir, hər bir sənətkarın qəlbi öz əsərlərində döyünür. Ancaq mən səmimiyyətlə etiraf edərdim ki, bu əsərdə iki ürəyin döyüntüsünü hiss etdim. Biri "Od içindən keçən yol" poemasının müəllifinin ürəyi, bir də onun tərənnüm etdiyi ədəbi qəhrəmanın, şairin ürəyi.

Yenə sənətkar doğru deyir ki, hər bir sənətkarın yaratdığı əsər onun həyatının davamıdır, ömrünün davamıdır. Hər halda, əsərin bura qədər hissəsindən belə bir duyğu bizə diktə edir ki, müəllif bu əsəri qəlbinin odunda qızınaraq, yaddaşının ilhamı ilə qələmə alıb. Şübhəsiz, bu əsər həm də ona görə xüsusi yanğı ilə təsvirlərlə ərsəyə gəlib ki, müəllif özü də yer, yurd həsrətlisidir.

*(Davamı var)*